بسم الله الرحمن الرحيم

## 14 məsumun (ə) həyatı

# İmam Əli (ə)




**Kitabın adı: İmam Əli (ə)**

**Tərcümə edən: Seyyid Zahir Cavadov**

**Çap tarixi: 2018**

**Çap növbəsi: Birinci**

**Tiraj: 1000**

**Издательство «Свет»**

**Типография «Махаон», 2018**

**ISBN 5-18-020518-3**



Adı: Əli (ə)
Məşhur ləqəbi: Əmirəlmöminin
Künyəsi: Əbül-Həsən
Atası: Əbu Talib
Anası: Fatimə bint Əsəd
Doğulduğu tarix: 13 rəcəb, besətdən on il qabaq
Doğulduğu yer: Kəbə evinin içərisi
Zahiri xilafət dövrü: Hicri-qəməri ilə 36-40-cı illər (dörd il doqquz ay)
İmamlıq müddəti: 30 il



Şəhid olduğu zaman və məkan: Hicrətin 40-cı ili, 19 ramazan, sübh namazı vaxtı, Kufə məscidində İbn Mülcəmin qılınc zərbəsi ilə yaralandı və 21 ramazanda 63 yaşında şəhid oldu.
Dəfn yeri: Nəcəf-əşrəf (İraq)

## İmam Əli (ə) Kəbədə dünyaya gəlir

Həzrət Əli (ə) besətdən 10 il qabaq cümə günü sübh çağı Məkkə şəhərində Kəbə evinin daxilində dünyaya gəldi. Ən müqəddəs yer olan Kəbə evinin daxilində dünyaya gəlmək o həzrətin həyatının bənzərsiz iftixar və üstünlüklərindən sayılır.

## Əli (ə) Peyğəmbərin (ə) evində

Balaca Əli yavaş-yavaş böyüdü və bir yaşı oldu, iki yaşı oldu, yeriməyi öyrəndi, dil açdı. Əli, Məkkənin küçələrində qaçanda camaat onu göstərib heyrətlə deyirdilər: “Bu oğlan Kəbənin əzizidir. Bu oğlan Kəbə övladıdır.”

Əlinin iki yaşı var idi. Bir dəfə o uşaqlarla oynayırdı. O yaxınlıqda bir quyu var idi. Camaat o quyudan su çəkib istifadə edirdilər. Birdən quyunun ağzında dayanmış uşaqlardan birinin ayağı sürüşdü və o quyuya düşəndə Əli kiçik cüssəsi ilə onun ayağından yapışdı. Uşaq başı üstə quyuya sallanan vəziyyətdə qaldı və qışqırmağa başladı. Uşağın fəryad səsini eşidən anası tez özünü quyunun yanına çatdırdı. O gördü ki, oğlu başı aşağı quyuya sallanmışdır və iki yaşlı uşaq da onun ayağından yapışıb saxlamışdır və quyuya düşməyə qoymur. Bu səhnəni görən ana o qədər




heyrətləndi ki, övladını xilas etmək əvəzinə digər qadınları ora çağıraraq bunu onlara göstərdi. Ana qadınları çağıraraq deyirdi: “Ey Məkkənin qadınları, gəlin görün Kəbənin əzizi oğlumu ölümdən necə qurtarıb!” Qadınlar quyunun yanına yığışdılar və balaca bir oğlan uşağının bir nəfəri quyuya düşməyə qoymamasının şahidi oldular. Onlar Əlinin başını və üzünü öpdülər. Əziz olan Əli onlar üçün daha da əzizləşdi. Fatimə və Əbu Talib belə bir övlad ilə daha da hörmətli oldular.

### İmam Əlinin (ə) atası

İmam Əlinin (ə) atası Əbu Talibdir. O, besətdən öncə və sonra qırx iki il müddətində Peyğəmbərə (s) nəzərə çarpacaq səviyyədə yardım etmişdir. Əbu Talibin imanının dərinliyi və genişliyi haqqında həzrət imam Məhəmməd Baqir (ə) buyurur: “Əgər Əbu Talibin imanı tərəzinin bir gözünə, bütün yaradılmışların imanı isə tərəzinin digər gözünə qoyulsa, Əbu Talibin imanı onların imanından üstün gələr.”



### İmam Əlinin (ə) anası

İmam Əlinin (ə) əziz anası Fatimə bint Əsəd ilk müsəlman olan şəxslərdəndir. Əbu Talib Peyğəmbərə (s) qəyyumluq edən zamanlar Fatimə bint Əsəd ona ana kimi mehribanlıq göstərirdi.
Fatiməni dəfn edərkən Peyğəmbər (s) ona son həddə ehtiram etdi və ona qarşı xüsusi ədəbini göstərdi. Peyğəmbər (s) həzrət Əliyə (ə) buyurdu: “O yalnız sənin anan deyil, mənim də anam idi.”

### Peyğəmbərin (s) dəqiq nəzarəti altında imam Əlinin (ə) tərbiyəsi

Besətdən neçə il öncə Hicazı başdan-başa quraqlıq və qəhətlik bürüdü. Bundan sonra həzrət Əli (ə) Peyğəmbərin (s) evində yaşadı və gecə-gündüz o həzrətin dəqiq nəzarəti altında tərbiyə aldı.

## İmam Əlinin (ə) uşaqlıq dövrünə aid bir neçə şirin xatirə

### İmam Əlinin (ə) adının qoyulması

İmam Əlinin (ə) adının qoyulması barədə belə rəvayət olunub: Əbu Talib gecə vaxtı körpəni anasından alıb sinəsinə basdı və anası Fatimə ilə birlikdə Məkkədən kənarda yerləşən Əbtəh məntəqəsinə (Mina və Məkkə arasında sel yolu) getdi. Orada Əbu Talib Allah ilə belə münacat etdi: “Ey qaranlıq gecəni və işıqlı Ayı yaradan Pərvərdigar! Bu körpənin adını bizə bəyan et!” Bu vaxt yerin üzərində buluda bənzər bir şey göründü. Əbu Talib onu götürdü və həzrət Əli (ə) ilə birlikdə sinəsinə yapışdıraraq evə qayıtdı. Sübh açılanda buluda oxşar mövcuda

baxdı. Gördü ki, o, göy rəngli lövhəyə dönmüşdür və üzərində yazılıb: "Siz iki nəfərə pak, təqvalı, seçilmiş və ləyaqətli bir övlad töhfə verilib. Onun adı Allahın ulu vəsflərindən alınmış uca məqamından qaynaqlanır!" Əbu Talib də körpənin adını Əli qoydu və yaşıl lövhəni Kəbənin sağ tərəfindən asdı.

### Əlinin (ə) güləşməsi

Əbu Talib güləşi çox sevirdi. Ona görə də oğlanlarını və qardaşlarını başına toplayır, onları iki-iki qruplara ayırır və güləşdirirdi. O zaman Əli (ə) yeniyetmə oğlan idi və hələ on yaşı tamam olmamışdı. Əbu Talib görürdü ki, oğlu Əli (ə) hər kəslə güləşirsə, ona qalib gəlir. O, bu səhnəni gördükdə hissləri coşur və deyirdi: "Əli qalib gəldi!"



### Əlinin (ə) Peyğəmbərə (s) qoşulması

Bir gün Əbu Talib gördü ki, onun on yaşlı oğlu Əli (ə), Peyğəmbərə (s) iman gətirmişdir və onunla birlikdə namaz qılır. Əbu Talib mehribanlıqla Əliyə (ə) dedi: "Seçdiyin bu din nədir və necədir?" Həzrət Əli (ə) atasına cavab verərək dedi: "Allaha və Allahın elçisinə iman gətirmişəm. Peyğəmbərin (s) gətirdiyini təsdiq etmişəm, onunla birlikdə Allaha namaz qılıram və ona itaət edirəm."
Əbu Talib oğlu Əlini (ə) qınamadı, üstəlik, təşviq edərək dedi:
"Bil ki, Məhəmməd səni xeyir və səadətdən başqa bir şeyə dəvət etməz. Ona qoşul və onu qoru."



### İmam Əlinin (ə) ilk müsəlman olması

Həmin dövrdə həzrət Əlinin (ə) ilk iftixarı onun İslamı qəbul etməkdə öndə olması idi. Daha dəqiq desək, o özünün keçmiş dini olan İslamı zahir etmişdi. Çünki həzrət uşaqlıqdan təkallahçı idi və heç vaxt bütə sitayiş etməmişdi. Ona görə də imam Əlinin (ə) İslamı qəbul etməyi bütpərəstlikdən əl çəkib müsəlman olması mənasında deyil. (Halbuki, Peyğəmbərin (s) digər səhabələri belə deyildi.)

## Hicrət hadisəsi



Peyğəmbərin (ə) iki böyük hiXədicə və Əbu Talib dünyadan köçmüşdü. Bütpərəstlər Məhəmmədi (s) öldürməyi qərara aldılar. Onlar gecə vaxtı Məhəmmədin (s) evinə hücum edərək qılıncla onu öldürməyi planlaşdırdılar. Ancaq Allah kafirlərin hiyləsindən Peyğəmbəri (s) xəbərdar etdi və əmr etdi ki, Məkkədən çıxaraq Yəsribə getsin. O gün qürub çağı Peyğəmbər (s) Əliyə (ə) dedi:

- Əlican! Allah mənə əmr etmişdir ki, Məkkədən çıxım.

Əli (ə) soruşdu: Hara gedəcəksən ey Allahın rəsulu?

- Yəsribə.

- Siz hər nə əmr etsəniz, mən onu yerinə yetirəcəyəm.

- Qüreyşin böyükləri evimə hücum edərək məni öldürmək istəyirlər. Səndən istəyirəm ki, əvəzimdə yatağımda yatasan.

- İtaət edirəm, ey Allahın rəsulu! Allahın və sənin yolunda canımı qurban verməyə hazıram.

- Əli, bu işin çox təhlükəli olduğunu bilirsənmi? Onlar qılınc çəkərək mənim evimə hücum edəcəklər.

- Ey Allahın rəsulu, kaş bədənimdə minlərlə canım olardı və onların hamısını sənin və sənin dininin yolunda fəda edərdim.

Peyğəmbər (s) əlini onun başına çəkərək dedi:

- "Ey Əli! Sən bu dünyada və axirətdə mənim qardaşım, canişinim, dostum və yoldaşım olacaqsan."



Peyğəmbər (ə) evdən kənara çıxdı və Yəsribə hicrət etdi. Əli (ə) Məkkədə və Peyğəmbərin (s) evində tək qaldı. Bir neçə gün sonra Əli də əmisi oğlunun ardınca Yəsribə yola düşdü. Ancaq həzrət bu səfərdə tək deyildi və üç nəfəri də özü ilə aparmalı idi: anası Fatiməni, bibisini və Peyğəmbərin (s) qızı həzrət Zəhranı (ə).

## Həzrət Zəhra (ə) ilə izdivacı

Peyğəmbərin qızı ilə evlənmək bir çox müsəlman kişilərin arzusu idi. Ancaq Fatimənin (ə) elçilərinə Peyğəmbər (s) belə cavab verirdi: “Bu məsələdə Allahın göstərişini gözləyirəm”.
Səhabələrdən çoxları Fatiməyə (ə) elçi gəldi və bu cavabı eşitdi.
Bir gün Əli (ə) elçilik məqsədilə Peyğəmbərin evinə getdi. Həzrət içəri daxil olub, salam verdi. Həmişə Əlini (ə) görəndə sevinən Peyğəmbər (s) sevinc və təbəssümlə dedi:
“Xoş gəlmisən, Əlican!”
Əli (ə) Peyğəmbərlə (s) üz-üzə oturdu və həzrətin nurlu çöhrəsinə baxdı. Amma nə üçün gəldiyi yadına düşəndə bir az utandı və başını aşağı saldı. Uşaqlıqdan Əlini (ə) böyütmüş və onu yaxşı tanıyan Peyğəmbər (s) başa düşdü ki, Əlinin (ə) sözü vardır, ancaq dilinə gətirməyə utanır. Ona görə də gənc əmisi oğlundan soruşdu:



“Ey Əli, bir sözün var idimi?”
Əli (ə) utanaraq başını aşağı saldı. Bir az sonra dedi: “Fatiməyə görə gəlmişəm, ey Allahın rəsulu.”
Peyğəmbər (s) sevinclə təbəssüm edərək dedi: “Yaxşı etmisən! Mən bu işə razıyam. Ancaq Fatimənin öz fikrini bilməliyəm.”
Peyğəmbər (s) yerindən qalxaraq Fatimənin (s) otağına getdi və əziz qızı ilə söhbət etdi. Bir azdan sevinclə otaqdan çıxdı və Əliyə (ə) üz tutaraq buyurdu: “Əlican! Sən bu işə razısan, Fatimə də razıdır, mən də razıyam, Allah da razıdır.”
O günlərdə Əlinin (ə) bir dəvəsi, bir qılıncı və bir zirehi var idi. Dəvə güzaran, qılınc da Allah yolunda cihad üçün lazım idi. Ancaq zirehini



sata bilərdi. Əli (ə) zirehini satdı və ondan əldə etdiyi az pulu toya xərclədi. Əli və Fatimənin izdivac məclisinə Peyğəmbərin (s) bütün səhabələri toplaşdı. Peyğəmbər (s) onlarla söhbət etdi, Əli (ə) və Fatimənin (ə) izdivacını onlara xəbər verdi, sonra əqd xütbəsi oxudu.
Əli (ə) həyat yoldaşı Fatiməni (ə) öz evinə apardığı gün Peyğəmbər (s) də onlarla birlikdə idi. Əlinin (ə) evində Peyğəmbər (s) Fatimənin (ə) əlindən tutaraq Əlinin (ə) əlinə qoydu və buyurdu: “İlahi, bu izdivacı mübarək et. İlahi, onlara bərəkət bəxş et!”
Sonra həzrət üzünü Əliyə (ə) tutaraq dedi: “Evdə bir-birinizlə mehriban olun. Ey Əli! Fatimə canımın bir parçasıdır. Bil ki, Fatiməni sevindirən məni sevindirmiş, onu narahat edən isə məni narahat etmişdir!”

Peyğəmbər (s) sonra üzünü Fatiməyə (ə) tutaraq dedi:
“Qızım Fatimə! Sən də bil ki, Əli mənim dostum və qardaşımdır.
Hər kəs ona kömək etsə, mənə kömək etmişdir və hər kəs onunla düşmənçilik etsə, mənimlə düşmənçilik etmişdir.”
Əli (ə) və Fatimənin (ə) evi kərpic və palçıqdan düzəldilmiş kiçik bir ev idi. Onlar ömürlərinin sonuna kimi bu evdə mehriban yaşadılar, Həsən (ə), Hüseyn (ə) və Zeynəb (ə) kimi övladlar tərbiyə etdilər.



## Əlinin (ə) evinin qapısından başqa bütün evlərin məscidə giriş qapıları bağlanır

Hicrətin birinci ilində baş verən hadisələrdən biri də bu idi ki, Mədinədə məscid tikdikdən sonra məscidin ətrafında evlər tikildi və bu evlərdə yaşayan müsəlmanlar evdən məscidə xüsusi qapı açmışdılar və məscidə bu qapılardan daxil olurdular.



Allah tərəfindən əmr gəldi ki, Peyğəmbərin (s) və Əlinin (ə) evinin qapısından başqa evlərdən məscidə açılan xüsusi qapıların hamısı bağlansın. Tarixdə bu hadisə məşhur “səddül-əbvab”, yaxud “qapıların bağlanması” hədisi ilə qeyd edilir.



**Peyğəmbərin (s) Əli (ə) ilə qardaşlıq əhdi**

Artıq hicrətdən neçə il ötmüşdü. Müxtəlif soy və mədəniyyətdən olan müsəlmanlar Mədinədə toplaşmışdı. Yeni qurulmuş İslam hökuməti bütün müsəlmanları bir bayraq altında toplaya bilməli və onların arasında birlik yaratmalı idi. Peyğəmbər (s), Allah tərəfindən göstəriş alır və bu göstəriş əsasında üç yüz nəfər mühacir və ənsar arasında iki nəfər-iki nəfər olmaqla qardaşlıq əqdinin bağlanmasını istəyir. Bu iş başa çatdıqdan sonra Əli (ə) gözləri dolmuş halda Peyğəmbərə (s) dedi:



"Öz səhabələrini bir-birləri ilə qardaş etdin. Bəs mənim qardaşım kim olsun?" Peyğəmbər (s) buyurdu: "Ey Əli! Sən mənim qardaşımsan və mən də sənin qardaşın. Kim bunu inkar etsə, ona de ki, mən Allahın bəndəsi və Allahın rəsulunun qardaşıyam. Bu sözü səndən başqa hər kəs desə, yalançıdır."

## Döyüş meydanlarında

İmam Əlinin (ə) həyatı Peyğəmbərin (s) vəfatına qədər çoxlu hadisələr, xüsusilə də döyüş meydanlarında fədakarlıqları ilə doludur.

Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra müşriklər, yəhudilər və üsyançılara qarşı iyirmi yeddi "qəzvə" baş vermişdir və imam Əli (ə) onlardan iyirmi altısında iştirak etmişdir. O, yalnız Təbuk qəzvəsində iştirak edə bilmədi. Bunun da səbəbi o idi ki, münafiqlər Peyğəmbərin (s) Mədinədə olmamasından istifadə edərək İslam hökumətinə qarşı plan hazırlamışdılar. Ona görə də həssas bir şərait yaranmışdı. Bunun qarşısını almaq üçün Peyğəmbərin (s) göstərişi ilə imam Əli (ə) Mədinədə qalmalı oldu.

("Qəzvə" Peyğəmbərin (s) şəxsən iştirak etdiyi müharibələrdir)

## Həzrət Əli (ə) Xəndək döyüşündə

Hicrətin beşinci ilinin ən böyük hadisəsi Xəndək müharibəsi idi. Peyğəmbərə (s) xəbər verdilər ki, Məkkənin müxtəlif qəbilələrindən ibarət on minlik qoşun İslam və müsəlmanları məhv etmək üçün Mədinəyə tərəf hərəkət etmişdir. Peyğəmbər (s) dərhal böyük səhabələrlə məşvərət etdi. Salman belə təklif irəli sürdü ki, Mədinəyə daxil olan yollarda xəndək qazılsın. Bu təklif qəbul edildi.

Mədinə düşmənlərin mühasirəsində idi, ancaq düşmən xəndəkdən keçə bilmədiyi üçün irəliləyə bilmirdi. Nəhayət, düşmən qoşunundan bir nəfər xəndəyi keçərək irəli çıxdı.




Qoşuna tərəf gələn bu şəxs ərəblərin adlı-sanlı qəhrəmanı və min nəfər döyüşçü ilə müqayisə edilən Əmr ibn Əbdəvəd idi. O, nərə çəkərək müsəlmanlara meydan oxuyurdu. Həzrət Əli (ə) Peyğəmbərdən (s) icazə alaraq tez meydana girdi. Onunla (ə) Əmr ibn Əbdəvəd üz-üzə dayandılar və onların arasında qızğın döyüş başladı. Toz-torpaq hər tərəfi bürümüşdü. Cabir ibn Abdullah deyir: “Birdən Əlinin (ə) təkbir səsini eşitdim və onun Əmri öldürməsini başa düşdüm.” Belə bir pəhləvanın Əlinin (ə) əli ilə öldürülməsi İslam qoşununun qələbəsinə yol açdı.

Peyğəmbər (s) bu barədə buyurur:

“Xəndək günü Əlinin düşmənə vurduğu zərbənin dəyəri cin və insin ibadətinin dəyərindən üstündür!”



## "Xasif əl-nəl"
## Peyğəmbərin (s) xəbərdarlığı

Hüdeybiyyə sülhü hadisəsində Süheyl ibn Ömər müşriklərin iki-üç nəfər nümayəndəsi ilə birlikdə təklif etdilər ki, sülh müqaviləsinə digər bir şərt də artırsınlar. O şərt belə idi: "Bir qrup xain bizim dinimizdən ayrılaraq sizə qoşulmuş və müsəlman olmuşdur. Onları bizə təhvil verməlisiniz."

Peyğəmbər (s) bu təklifdən çox qəzəbləndi və onlara buyurdu: "Ey qüreyşlilər, bu mövzudan əl çəkin. Yoxsa sizə tərəf elə bir şəxsi göndərərəm ki, Allah onun qəlbini iman ilə sınamışdır və o sizin boynunuzu vurar."

Ora toplaşmış adamlar soruşdular: "O şəxs kimdir?" Peyğəmbər (s) buyurdu: "O, elə indi mənim ayaqqabımı təmir edir."

Həzrət Əli (ə) buyurur: "Mən o zaman oturub, Peyğəmbərin (s) ayaqqabısını təmir edirdim."

Peyğəmbər (s) yerindən qalxdı və Əlini (ə) göstərərək buyurdu: "Əlini (məqamını) inkar edənin yeri atəşdir!"

## Qədir-Xumda Əlinin (ə) canişinliyinin elanı



Hicrətin onuncu ilinin zilhiccə ayında həcc mərasimi bitdikdən sonra Peyğəmbər (s) və onunla həcc səfərində olanlar Mədinəyə yola düşdülər. Onlar quru və yandırıcı səhra olan Qədir-Xuma çatdılar.

Peyğəmbərlə (s) birgə olanların sayını doxsan və ya yüz iyirmi min arasında olduğunu yazırlar.

Belə bir yerdə vəhy mələyi Peyğəmbərə (s) nazil oldu və “Maidə” surəsinin 67-ci ayəsini nazil etdi:

”يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ“.

“Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil edilən təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq.”

Zöhr namazından sonra Peyğəmbərin (s) göstərişi ilə dəvələrin palanlarından kürsü düzəltdilər və həzrət kürsüyə qalxaraq xütbə oxudu. Peyğəmbər (s) buyurdu: “Möminlərə, onların özlərindən daha layiqi kimdir?”

Dedilər: “Allah və Peyğəmbəri daha yaxşı bilir!”



Peyğəmbər buyurdu: “Allah mənim mövlamdır, mən də möminlərin mövlasıyam – onlara özlərindən daha üstün və daha layiqəm!”

Sonra həzrət Əlinin (ə) əlindən tutaraq qaldırdı. Hamı onu gördü və tanıdı. Bu zaman buyurdu:

”من كنت مولاه فهذا على مولاه“.

“Mən hər kəsin mövlasıyamsa, bu Əli də onun mövlasıdır.”



## İyirmi beş il sükut

Peyğəmbərin (s) vəfatı ilə Əli (ə) qardaşını və həm də böyük dayaqğını itirdi. İndidən sonra o (ə) hislərini yalnız mehriban həyat yoldaşı Fatimə (ə) – Məhəmmədin (s) yadigarı ilə bölüşürdü.

Artıq müsəlmanların hidayətçisi olan Peyğəmbər (s) onları tərk edərək Allaha qovuşmuşdu. Həzrətin vəfat etməsi ilə müsəlmanların çoxu onun sifarişlərini unutdular və etinasız yanaşdılar. Əli (ə) Peyğəmbərin (s) dəfninə məşğul ikən onlar bir yerə toplaşaraq şura yaratdılar və Əbu Bəkri Peyğəmbərin (s) canişini seçdilər.



Peyğəmbərin (s) sifarişini unutmayan bir neçə nəfər Əlinin (ə) ətrafına yığışdılar və öz haqqını müdafiə etməsini istədilər. Ancaq müsəlmanlar arasında ikitirəlik və ixtilaf yaranmasını istəməyən Əli (ə) sükut etdi, heç nə demədi. Evdə oturdu və Peyğəmbər (s) üçün darıxanda Fatiməyə (ə) baxırdı. Amma Fatimə (ə) də atasının vəfatından sonra müsəlmanların Əli (ə) ilə rəftarından narahat və qəmli idi. Fatimə (ə) də atasının ayrılığına görə ağlayırdı. Xanım o qədər ağladı ki, atasının vəfatından üç ay sonra özü də dünyadan köçdü.

İndi Əli (ə) yalqız qalmışdı. Ürəyini Fatimənin (ə) övladları Həsən (ə) və Hüseynə (ə) bağlamışdı. Peyğəmbərin (s) Həsən (ə) və Hüseyni (ə) çiyninə alması, onlarla əylənməsini xatırlayırdı.

Əbu Bəkr öləndən sonra Ömər onun canişini oldu. Ömərdən də sonra Osman xilafət başına gəldi. Bu üç nəfərin xəlifəliyi iyirmi beş il çəkdi və həmin illər ərzində müsəlmanlar bir çətinliklə qarşılaşdıqda Əliyə (ə) müraciət edirdilər.

Üç xəlifə də mürəkkəb bir məsələ ilə qarşılaşdıqda Əlini (ə) çağırır və ondan kömək istəyirdilər. Ömər dəfələrlə demişdir: “Əgər Əli olmasaydı, Ömər həlak olardı.”

Ancaq iyirmi beş ildən sonra sanki müsəlmanlar təzə qəflət yuxusundan ayıldılar və sanki Peyğəmbərin (s) sifarişi indi onların yadına düşdü. Bu qədər vaxt ötdükdən sonra anladılar ki, İslam icmasına yalnız Əli (ə) rəhbərlik edə bilər.



## İmam Əlinin (ə) şəhadəti

Hicrətin qırxıncı ili, ramazan ayının on doqquzuncu gecəsi idi. O gecə Əli (ə) qızı Ümmü-Gülsümə qonaq idi. İftar vaxtı o həzrət bir az duzla çörək yeyib, namaz qılmağa başladı. Namazdan sonra eyvana çıxdı. Bir neçə dəqiqə səmaya və ulduzlara baxdı. Sonra öz-özünə yavaşca dedi: “And olsun Allaha, mənə yalan deməyiblər, mən də yalan demirəm. Bu mənə vədə verilən həmin gecədir!”

Əmirəlmöminin Əli (ə) o gecə bir daha digər gecələrdə olduğu kimi sübhədək namaz qılmağa və münacat etməyə məşğul oldu. Sübh namazına bir az qalmış məscidə getməyə hazırlaşdı. Evdən çıxmaq istədikdə onun kəməri qapının dəstəyinə ilişdi, hətta kəmər açıldı. İmam kəməri yenidən bağlayıb, məscidə tərəf yola düşdü.

Həyətdə olan ördəklər qol-qanad vuraraq Əlinin (ə) qarşısını kəsdilər. Həzrət onların üzünə təbəssüm edərək yoluna davam etdi.

Məscidin çıraqları sönmüşdü. Bir dəstə adam məsciddə yatmışdı. Əli (ə) onları yuxudan oyatdı, məscidin damına qalxıb, azan dedi. Yenidən məscidə qayıtdı və namaz qılmaq üçün ibadət mehrabına keçdi. Namaz başlandı. Əlinin (ə) azan səsini eşidərək məscidə gəlmiş müsəlmanlar həzrətə iqtida edərək namaza dayandılar. Birinci rəkətin Həmd-surəsi başa çatdı. Əli (ə) rükuya əyildi. Bu zaman İbn Mülcəm özünü imama çatdırdı. Həzrət (ə) səcdəyə endi və səcdənin zikrini oxudu. İmam hələ başını səcdədən qaldırmamış İbn Mülcəmin nərəsi məscidə yayıldı və qılıncı parladı. Qılınc Əlinin (ə) başını alnına kimi yardı və həzrətin qanı mehraba töküldü.

İmam (ə) ucadan buyurdu: “And olsun Kəbənin Rəbbinə, azad oldum!”

Camaat Əlinin (ə) ətrafına toplaşdı və həzrəti evə apardılar. Onlar İbn Mülcəmi də tutub zindana saldılar. Əli (ə) üçün həkim gətirdilər. Həkim yaranın yerini müayinə edərək dedi: "Əbül-Həsən bu yaradan salamat qurtarmaz!"

Hamı ağlamağa və şivən etməyə başladı.



## O həzrətin kəlamlarından:

“Sizin qiymətiniz yalnız behiştdir, özünüzü ondan ucuzuna satmayın.”

“Qeybətə qulaq asan elə qeybət edən kimidir.”

“Allah yolunda döyüşənlər üçün göyün qapıları açılar.”

14 məsumun (ə) həyatı

2



# İmam Əli (ə)

